

Məlahət Babayeva

# Hüseyn Cavidin vətən sevgisi

**Xalqın hansı ictimai-siyasi sistemdə və quruluşda yaşamasından asılı olmayaraq onun mənəvi aləmini, fikir və hisslərini, milli xarakterini əks etdirmək, bununla da həmin xalqın inkişafına təsir göstərmək bədii ədəbiyyatın ən mühüm vəzifələrindən biridir. Bu mənada bədii ədəbiyyat da xalqın bir növ tarixidir. Bədii ədəbiyyat bu tarixi şanlı və əyani şəkildə bədii obrazlarla, estetik vasitələrlə əks etdirir.**

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli ədəbiyyatımıza da təsir etmiş Əhməd Cavad, Cəfər Cabbarlı, Y.V.Çəmənzəminli, A.İldırım və başqaları öz əsərlərində milli şüurun oyanmasına, özünüdərkə xidmət edən ideyalara yer vermişdilər.

Bu dövrdə  həm çr müstəmləkə siyasətinə, həm də sonralar Sovet totalitar rejiminə qarşı qələmi ilə mübarizə aparan, milli düşüncəni, inqilabi-demokratik ideyaları ədəbiyyatımızda müxtəlif janr formalarında təsvir edən şairlərimizdən biri də Hüseyn Caviddir. Hüseyn Cavid hələ 1915-ci ildə öz uzaqgörənliyi ilə mövcud siyasi prosesləri dəqiq təhlil etmiş və gəldiyi qənaətləri "Müharibə və ədəbiyyat" məqaləsində belə təsvir etmişdi: "...Əvət bugünkü müharibənin hazırlamaqda olduğu zərbə pək qorxunc, pək təhlükəlidir. Şu müdhiş inqilabdan heç bir qüvvət qurtulmayacaq. Bütün elmlər, fənlər, umulmaz dərəcədə sarsılacaq, dəyişəcək. Şübhəsiz ki, ədəbiyyat da bu axıntıya qapılmaqdan özünü almayacaq. Bəlkə, daha kəskin, daha sağlam addımlarla yüyürəcək. Daha doğru, daha mətin bir yol izləyəcək ... və şimdiyə qədər qaraladığımız saçmalar, bugünkü (para-tikə, alabəzək) ədəbiyyatımız da büsbütün alt-üst olacaq. Həm də insafsız, mərhəmətsiz, etinasız bir surətdə yırtılıb, atılacaq, heyhat!.. Son nədamət fayda verməyəcək!.."

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və inkişafı bir çox qanlı hadisələrin müşayiəti ilə cərəyan etdiyindən H.Cavid həmin dövrdə baş verən siyasi proseslərə biganə qalmamış, hadisələrə fəlsəfi nöqteyi-nəzərdən yanaşaraq öz münasibətini bildirmişdir. Erməni talanlarının və qəsbkarlığın geniş vüsət tapdığı bu dövrdə H. Cavid Anadolu hərbzədələrinə yardım münasibətilə "Hərb və fəlakət", "Dəniz tamaşası",  Kars və Otlu ətrafında səbəbsiz olaraq qətl və yağma edilənlərə ithafən "Məzlumlar için", "Sən nəsin? Kimsin?" deyən ariflərə cavab olaraq "İştə bir divanədən bir xatirə", "Qoca bir türkün vəsiyyəti", "İsmayıl bəy", "Türk əsirləri" və s. şeirlərini yazmış və burada Turanın şanlı tarixini, milli mənsubiyyətini təsvir etmiş, türklərin firqələrə, təriqətlərə, milli azlıqlara ayrılmayıb ümumislam, qardaşlıq bayrağı altında birləşməsini təbliğ etmişdi.

H.Cavidin bu qəbildən olan və onun bədii-fəlsəfi, ictimai-siyasi fikirlərini əks etdirən möhtəşəm əsərlərindən biri də "Qoca bir türkün vəsiyyəti" şeiridir. Bu şeir müdrik bir qocanın, fədakar bir müəllimin xalqına, övladlarına ünvanladığı öyüdü - "bir qayesiz uçurum var, ayrılmır önümdən", "artıq mənə dar gəlir, bu əngin üfüqlər" deyən nakam şairin bütün türk xalqına xitabən söylədiyi fəlsəfi görüşlərinin estetik təzahürü idi.

Cavid, bu şeirində də yenə türklərin şanlı keçmişindən, bir zamanlar dünyanın üçdə birisinə hakim olmalarından bəhs edir və bunları izah edərkən Türk xalqlarına öz köklərini, tarixi keçmişini bilməsini ən vacib şərt olduğunu bildirirdi:

*Bir millətin tarixidir kökü, yurdu, yuvası,*
*Tarixiniz baş ucundan hərgiz əskik olmasın.*
*"Altay" dağı, "Makan" çölü, həm də "Yasın " ovası,*
*Birər aydın səhifədir, hər türk gərək anlasın.*



Şair öz tarixini, keçmişini unudan xalqların ölümə məhkum olduqlarını söyləyərək bizim mütləq öz tarixi köklərimizə və milli dəyərlərimizə sahib çıxmağımızı nəsihət edirdi. Cavid Türk ellərini elm, təhsil və mədəniyyətin beşiyi adlandıraraq gənclərimizi Turanın yeni şanlı tarixini yazmağa səsləyirdi:

*Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,*
*Elmas kibi ləkəsizdir, saqın, qafil olmayın.*
*Əsr, iyirminci əsrdir! Vəzifəsi pək ağır...*
*Arş irəli!*
*Qonşular yol aldı, geri qalmayın!*

H.Cavid 1922-23-cü illərdə-Sovetlər Birliyinin İslam dini əleyhinə mübarizə apardığı kəskin dövrlərdə də əqidəsindən dönməmiş və "Peyğəmbər" əsərini yazaraq həm müstəmləkəçiləri ifşa etmiş, həm də İslam dinin əsl missiyasını göstərməyə müvəffəq olmuşdu:

*Dün bir quş gördüm yaralı,*
*Düşmüş yurdundan aralı.*
*Dişlərdi köksünü çalı,*
*Söylərdi sanki hər halı;*
*Vəhşi qartal qıydı bana,*
*Vətən! Ah, sevgili ana!*

XX əsrin böyük filosof şairlərindən biri olan H.Cavid ictimai ədalətsizliyi, nadanlığı tənqid edərək, öz müasirlərini mövcud siyasi hadisələrin mahiyyətini düzgün qiymətləndirməyə çağırmış və Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da öz həmvətənlərini, həmçinin məzlum Şərqi oyatmaq, ayağa qaldırmaq üçün yollar axtarmışdır. Bunun nəticəsində də Cavid müstəmləkəçilərə qarşı qələmlə, sözlə mübarizə aparmış və öz vətəninə, millətinə xidmət göstərmişdir.